**UOT 388:801.6; 398:82.0; 801.8**
**https://doi.org/10.59849/2218-4783.2025.1.235**

**AYTƏN CƏFƏROVA**

# XIDIR NƏBİ MƏRASİMİ: QƏDİM MİFOLOJİ TƏFƏKKÜRDƏ VƏ MÜASİR DÖVRDƏ İCRA VƏZİYYƏTİ

*Qədim türklərin mövsüm və mərasimlər haqqındakı düşüncələri onların bu mənada icra etdikləri ayin və rituallarda özünü göstərir. Hər mövsümdə təbiətin müxtəlifliyi qədim insanın təəccübünə səbəb olmuşdur. Bu təəccübündən də irəli gələrək müxtəlif ayin, rituallar icra etmişdilər. Hər fəsildə baş verən hava dəyişikliyi, təbiət hadisələri insanların təbiət hadisələrini özlərinə ram etmək haqqında tədbirlərinin gerçəkləşməsini şərtləndirmişdir. Odur ki, mövsümlə bağlı dəyişikliklər insanların maraqlı ayin və ritualları həyata keçirməyə təhrik etmişdir. Bunların çoxunun zaman-zaman icra olunması müxtəlif mövsüm mərasimi faktlarının müasir günümüzdə də formalaşması və icrasını gerçəkləşdirmişdir. Mərasimlər qədim insanın dünyaya baxışını özündə yaşadan mədəniyyət faktlarıdır. İstər mövsüm, istər məişət mərasimləri yarandığı və formalaşdığı məkan-zaman faktlarının da özəlliyini daşımaqdadır. Yəni, ümuma aid olan bir mərasim hansı məkanda daha çox rituallarla zəngin şəkildə icra edilirsə, həmin məkanla bağlılığı təsdiq olunur. Və ya mərasimin icrası zamanı ən aktiv olan etnoqrafik faktdan onun tarixini – yaranma və formalaşma zamanını müəyyən qədər təyin etmək olur. Məhz buna görə mərasim faktlarının qorunması və gələcəyə ötürülməsi üçün onun icrasını təmin etmək çox vacibdir.*

*Məqalədə Azərbaycan türklərində günümüzdə də böyük coşqu ilə keçirilən Xıdır Nəbi mərasiminin mifoloji mahiyyəti və günümüzdəki icra vəziyyətindən bəhs olunacaqdır.*

**Açar sözlər:** *Xıdır Nəbi, mərasim, bayram, Türk xalqları, ritual, yaşıl dünya, məkan və zaman.*

**Giriş:** Mərasim faktları malik olduğu xalqın qədim mədəniyyətinin və köklü tarixinin təsdiqidir. Türk xalqlarının da mərasim faktları onun sözlü mədəniyyətində də əks olunur. Yəni qədim türkün mərasim adətlərini özündə ehtiva edən yetərincə folklor örnəkləri istər müxtəlif zamanlarda toplanılaraq yazıya alınmış şəkildə, istərsə də yaddaşlarda və icra məqamlarında mövcuddur. Doğrudur, ən qədim dövrlərdə türk xalqlarında icra olunmuş, bu gün isə unudulmuş mərasim adətləri – ayinlər və rituallar mövcud olub. Və bunların mövcudluğu haqqındakı məlumatı da biz müxtəlif folklor örnəklərinin daxilindəki faktlar vasitəsilə alırıq. Məsələn, bu gün bir türk toplumunda icra olunan mərasim və qeyri-mərasim faktında ifa olunan mətnlərdəki mənası günümüzdə anlaşılmayan sözləri müşahidə edirik. Onları incələdikcə hansısa bir mərasimin varlığı müəyyən oluna bilər. Və hər hansı bir folklor örnəyində, məsələn, bayatı örnəyinin daxilində hər hansı bir mərasim haqqında da qısa məlumat poetik şəkildə ötürülüb.

Mərasim və ya ritual əski çağlarda yaşamın tənzimlənməsi, qutsalın qorunması və s. üçün keçirilən qutsal xarakterli ayinlərdir. Ancaq dilimizdə mərasim deyildikdə, daha çox, iş, bayram və b. günlərdə keçirilən sözlü, göstərili tamaşalar nəzərdə tutulur [4, s. 130].

Folklorşünas alim Füzuli Bayatın fikirlərindən dəstək alaraq, əlavə edə bilərik ki, türk xalqlarında icra olunan mərasimlər, əsasən, yüksək əxlaqi-humanist dəyərlərin qorunması və mühafizəsi baxımından da çox əhəmiyyətlidir. O cümlədən, Azərbaycan türklərində də mərasimlər əlaqəli icra olunan ayin və ritualların xalqa məxsus olan köklü dəyərlərin yaşanmasında böyük rolu vardır. İcra olunan hər bir mərasim faktı minilliklərin hər hansı bir hadisəsini ümumiləşdirərək formalaşmış, icra ortamları sayəsində dövrümüzə qədər gəlib çatmışdır. İcra olunan hər bir mərasim faktında xalqın dünyagörüşünü əks etdirən məqamları aşkarlamaq mümkündür. Bu barədə aktivlik mövsüm mərasimləri üçün daha çox xarakterikdir.

Azərbaycan türklərində icra mövsüm mərasimləri həmin zaman kəsiminin özəllikləri ilə birbaşa bağlı olmaqla yanaşı həm də etnosun həmin zaman kəsimi ilə əlaqəli köklü təsəvvürlərini də özündə yaşadır. Bu baxımdan, qışın daxil olması mərasimi olan Çillə mərasimindən etibarən qədim insan özünə və onun yaşamını təmin edən təsərrüfatına dəyəcək ziyanın qarşısını almaq üçün müx-

təlif ritualları keçirməklə təbiətin “acı üzünü” göstərməsinin qarşısını aldığını düşünür. Bu proses elə Böyük Çillədən başlayaraq Kiçik Çillə dönəmində icra olunan Xıdır Nəbi mərasimində də davam edir. Kiçik Çillə dönəmi xalq təfəkküründə təsvir edildiyi kimi, özünün “sərt üzünü” göstərir: havalar qarlı, şaxtalı, çovğunlu keçir. Bu zaman kəsimindəki fəsadlara qalib gəlmək üçün qədim insan həmin ritualların keçirilməsini vacib hesab edib. Və bu düşüncədən qaynaqlanan mərasimlərin bir çoxu dövrümüzə qədər gələ bilib.

Xalqımızın mövsüm və məişət mərasimlərinin qədim kökləri vardır. Bunların Azərbaycan türklərinə məxsus olub, kökü də məhz xalqımızın qədim mədəniyyəti ilə bağlı olanları da var, ümumtürk aləmində icra olunaraq kökü qədim türklərin ümummədəniyyət faktorlarına bağlı olanları da. Məhz ümumtürk dünyasına məxsus olan mərasimlər sırasında qədim mifoloji görüşlərlə zəngin olan mərasimlərdən biri də Xıdır Nəbidir ki, mərasimin zəngin rituallarla bəzənməsi onun mifoloji köklərinin də həm bir o qədər zəngin, həm də dərin olmasını sübut edir. Türk xalqlarının mövsüm mərasimlərindən hesab olunan Xıdır Nəbi mərasimi də qədim türklərin mövsüm düşüncəsi ilə bağlı olunan mərasim faktıdır. Xıdır mərasimi Türk dünyasında icra olunaraq günümüzdə “bayram” statusunu da qazanmaqdadır. Bayram ən geniş mahiyyəti yazın, yeni həyatın, yaşıl təbiətin gəlməsini arzulamaqla bağlıdır. Qışın oğlan çağında – Kiçik Çillə dönəmində keçirilən bu mərasim yaşıl dünya uğrunda mübarizənin ilkin simvollarındandır.

Qeyd edək ki, “şıltaqlığı və ərköyünlüyü” ilə qış fəslinin “oğlan çağı” adlandırılan Kiçik Çillə dönəminin, yəni fevral ayının əvvəlindən ta ki 20-nə kimi olan zamanında hava Böyük Çillə dönəminin əksinə olaraq soyuq keçir: əsasən dağlıq ərazilərdə qar, dolu və şaxtalı hava insanları təsərrüfat baxımdan narahat edir. Böyük Çillə zamanında özünü xoş göstərən havanın, necə deyərlər, “üzü dönür”. Və qədim insan da belə havanın, şaxtanın, soyuğun gətirə biləcəyi ziyanı dəf etmək məqsədilə müxtəlif ayinlər, rituallarla təbiətə qarşı gəlir, bununla da özünü sanki gələcək təbii bəlalardan “sığortalayır”. Bu münasibətlə keçirilən ritualların diqqət çəkənlərindən biri də Xıdır Nəbi mərasimidir. Xıdır Nəbi mərasimi Kiçik Çillənin ilk onuncu günü qeyd olunur. Xalq yaddaşında mövcud olan inanca görə, Xıdır Nəbidən üç gün əvvəl, üç gün də sonra yel əsər. Bu yel Xıdır yeli adlanır. Və bu yel güclü olar. Yel əsməyə başlayanda hər tərəf toz-torpağa bürünər. Xalq söyləmələrinə görə, bu toz-torpaq Xıdırın əfsanəvi atının təpiyindən qopan tozdur. Xıdır öz gəlişini belə bildirər. Üç gün sonra əsən yel Xıdırın getdiyini bildirər. Yenə hər tərəf toza, dumana bürünər. Aləmə bolluq, bərəkət, istilik, yaşıllıq bəxş edən Xıdır, xalq inancına görə, özü yaşıl geyimli, atı isə boz rəngdədir. Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində Xıdır Nəbi mərasimində ən çox sevilən nemət buğda qovurulmuşudur. Əgər əvvəllər təkcə buğda qovurulardısa, hazırda başqa dənli bitkilər də əlavə olunaraq qovurulur. Xıdır Nəbi mərasimin simvolik yeməyi kimi məşhur olan qovutun hazırlanması mərasimin özəlliyini vurğulayır. Undan və şərbətdən hazırlanan qovut istilik yaradan yeməkdir. Həm də ona görə hazırlanır ki, soyuq, sərt keçən çillə bu istilikdən “qorxsun”. Bu da insanların “ərköyün və ziyankar” Kiçik Çillənin onlara, təsərrüfata vuracağı ziyanın qarşısını almaq istəyini ifadə edir. Havaların olduqca soyuq keçməsindən ehtiyat edən etnos təbiətin ona xoş davranması üçün qurban vermə, itaət etmə rituallarını həyata keçirirdi. Bunun qalıqları hazırda qovutun hazırlanması mərasimində özünü qoruyub saxlamaqdadır.

Ümumiyyətlə, xalq mövsüm və məişət mərasimlərində daha aktiv fəaliyyət göstərən qadınlar Xıdır Nəbinin icrasında da böyük aktivlik nümayiş etdirirlər. Və qadınlar Kiçik Çillə girəndən buğda tədarükünü aparırlar. Beləliklə, buğda qovurulur. Qovurulan buğda əl dəyirmanında döyülür. Döyülən buğda una çevrilsə də, iri dənələrin qalmağı qovutu daha dadlı edər. Üzərinə yağ, su əlavə edilən qovuta günümüzdə şəkər də əlavə olunur. Lakin əvvəllər qovut üçün seçilən buğda şirin növdən seçilirdi və ona şəkər əlavə olunmurdu. Belə qovut daha dadlı olardı. Hazırlanan qovut kiçik qablara yayılır, evin dörd küncünə qoyulur. Etiqada görə, Xıdır gəlib qovuta barmaq basacaq. Xıdır Nəbi gəlib hansı qovutun üzərinə barmağını basarsa, o qovutu gələn ilə saxlayarlar. Bu, bərəkət rəmzidir. Həm də bu, Xıdırın həmin evə bolluq, bərəkət arzuladığına inanılan faktdır. Bu baxımdan

xalq arasında bərəkətli olan ruzi, tükənməz var-dövlət haqqında belə deyərlər ki: "Buna Xıdırın əli dəyib".

Xıdır Nəbi mərasiminin əslində yaşıl təbiət, yeni həyat uğrunda mübarizə arzusu dayanır. Xıdır xalq təfəkküründə yaşıl geyimli kimi də təsəvvür olunur. Xalqın düşüncəsində Xıdır gəlişi yaşıl təbiətin başlanğıcı deməkdir. Və Xıdır obrazı ilə yaşıl rəngin sintezi yaşıl rəngin xalq düşüncəsindəki simvolik yerini müəyyənləşdirir. Ümumiyyətlə, yaşıl rəng elə qışın daxil olduğu Çillə mərasimindən "öz fəallığına" başlayır. Çillə mərasiminin ən aktiv neməti olan qarpızın üzərinin yaşıl rəng olması bu rəngin dərin simvolikasını üzə çıxarır: qədim insanın təbiətlə mübarizəsinin ilk dövrlərindən – Çillə günündən etibarən yaşıl rəng – yaşıl təbiət uğrunda mübarizə başlayır.

Yaşıl rəng bolluğun rəmzi olmaqla yanaşı həm də cavanlığın, yeniliyin simvolu kimi də qəbul olunur. Alim M.Seyidov "yaşıl" sözünün "yaş" və "ıl" komponentlərindən ibarət olduğunu yazır. O söyləyir ki "...Burada "yaş" sözü kökdür, nüvədir, əsasdır, "ıl" isə, ehtimal ki, vaxtilə canlı, sonralar ölü sözdüzəldici şəkilçidir və ya sözə birləşmiş naməlum sözün özü və ya qalığıdır" [8, s. 47]. Alimin fikirlərinə əsaslansaq, onda "yaş" sözünün kəsb etdiyi mənaları araşdırmaq zərurətinin yarandığını görərik. Bu istiqamətdə yola çıxsaq, Mahmud Kaşğarlının "Divani-lüğət-it türk" sözlüyündə də "yaş" sözünün "təzə", "tər", "göyərti", "yaşıllıq", "bitki", "göyərmək", "göyərti" anlamlarını daşıdığı müşahidə olunur [6, s. 657].

Mərasimin əsas diqqətçəkən "tələblərindən" biri də evlərdə təmizlik işlərinin icrasıdır. Və mərasimin xoş keçməsi, ilin bərəkətli, xeyirli olmasını arzulayan qadınlar evlərdə təmizlik işləri aparır, qonşu və qohumlarda olan qadınlar bir evə toplaşıb nəğmələr oxuyar, şirniyyatlar bişirərlər. İnanca görə, insanlar üçün Tanrıdan bolluq diləyən Xıdır obrazı təmiz olan evdə çox qalar. Həm də həmin mərasim dönəmində insanlar bir-biri ilə mehriban münasibətdə olmalıdır.

Türk xalqlarında olan mifik inanca görə, Xıdır Nəbinin iki qardaşı da var. Yəni Xıdır Zinda, Xıdır İlyas və Xıdır Nəbi üç qardaşdırlar. Xıdır Zinda çətinlikdə olanlara Tanrıdan aman, rəhm diləyər. Xıdır İlyas sudan insan üçün təhlükə yarananda köməyə çağırılar. Xıdır Nəbi isə qıtlıqdan, kasıblıqdan əziyyətə düşənə Tanrıdan kömək istəyər. Həmin mifik inancın qalıqları indi yaddaşlarda qorunan bir el kəlamında belə ifadə olunur: "İşlərin çətinlikdədirsə, Xıdır Zindanı çağır. Suda boğulanda, ya da susuzluqdan əziyyət çəkəndə Xıdır İlyası, kasıbsansa, ruzin yoxsa, Xıdır Nəbini səslə" [5, s. 72]. Təsadüfi deyil ki, Azərbaycanın bəzi regionlarında, eləcə də bəzi türk xalqlarında Xıdır Nəbi mərasiminə Xıdırəlləz də deyərlər.

Naxçıvan MR ərazilərindən topladığımız inanc nümunələrinə əsasən, Xıdır Nəbi mərasiminin fevral ayının 10-na qədər mövcud olan ilk cümə axşamında qeyd olunmağı məqbul sayılır. Buradakı cümə axşamı məqamı dini faktorların xalq mərasimlərinə, mərasim yaddaşına təsirinin nəticəsidir.

Qərbi Azərbaycanın Dərələyəz mahalından qaçqın düşən əhalinin Xıdır Nəbi mərasimi ilə bağlı keçirdikləri rituallar iki mərhələli olur, yəni iki gün ərzində icra olunur. Məsələn, Ordubad rayonunun Parağa kəndində məskunlaşan Dərələyəz mahalının ağbirçəkləri – Lalə Məmmədova və Ölkə Xudayeva bacıları bu mərasimlə bağlı maraqlı faktları belə təsvir edirlər: "Xıdırın birinci günü, yəni fevralın 4-ü "Xıdırın qovurğa günü"dür. Bu gün yalnız dənli bitkilərdən – buğda, qarğıdalı, küngüt və s. qovurulur. Qovurğanı hazırlayanda gənc qızların falına da baxarlar. Sacı qoyurlar ocağın üstünə buğdanı da subay qızlar hərəsi özü bir-bir atır isti sacın üstünə. Belə deyərlər ki, hansı buğda tez çırtlasa onun "sahibi" subay qız o il ailə quracaq. Hansı çırtlamadısa, demək o buğdanın sahibi "qalax qalacaq", yəni evdə qalacaq. Evlərdə qovurulmuş və üyüdülmüş buğdadan qovut hazırlanır. Qovut qoyulur yükün altına. Düşünülür ki, Xıdır peyğəmbər gələcək, əlini basacaq qovutun üstünə və o zaman o evdə bərəkət həmişə olacaq". Bu ərazidə insanlar Xıdır Nəbi mərasiminə həm də "7 ləvin" deyirlər. Bu da həmin gün süfrədə yeddi cür çərəzin olmasını ifadə edir: ərik qurusu, qovurğa, qovut, cövüz, kişmiş, noxud, ərik dənəsi bu gün mütləq süfrədə olmalıdır. İkinci gün, yəni fevralın beşi "xəşil günü" adlanır. Bu gün mütləq evlərdə xəşil bişirilməlidir və ailənin hər üzvü də bu xəşildən yeməlidir. Xəşil ya bal, ya da doşabla və adətən səhər tezdən yeyilir. Dərələyəzin Xıdı-

rının ən maraqlı tərəflərindən biri də Xıdır payı yığmaq adətidir. Xıdır payı toplamaq məqsədilə evlərə üz tutan uşaqlar qapılara yaxınlaşanda ev yiyəsinə maraqlı poetik mətnlərlə müraciət edərlər:

Xıdır, Xıdır, Xıdır Eylas,
Bitdi çiçək, oldu yaz.
Mən Xıdırın nalıyam,
Başının papağıyam.
Xıdır, Xıdır, Xıd gətir,
Get dərədən ot gətir,
Kim Xıdırın payın verməsə...

Uşaqlar Xıdır payı verilməyən evlərdən qarğış və qeyri-etik sözlər ünvanlamaqla geri qayıdarlar. Xıdırla bağlı Dərələyəz mahalında qadağalar da vardır. Deyərlər ki, Xıdır Nəbi bəndərgahdır, yəni Xıdırın xoşuna gəlməyən, bəyənmədiyi işləri görməzlər. Bu gündə baş yumazlar, suya düşməzlər, paltar yumazlar, gecə şər vaxtı isti suyu həyətə atmazlar. Ümumiyyətlə, Xıdırın xalq düşüncəsindəki missiyası ruzi, bolluq, əmin-amanlıq gətirməkdir. Xıdır türk mifik təfəkürürün məhsulu olan obrazdır. Xıdıra müraciət edən qədim etnos ondan hər zaman nicat gözləyib.

Xıdır Nəbi mərasimindəki pay diləmə, pay toplama ritualı Novruz bayramında, eləcə də dini bayram olan Ramazanda – “Orucun 15-i” adlanan mərasimin əsas atributlarındandır. Demək, əldə olunan qənaət budur ki, bütün bu mərasimlərin kökündə yüksək keyfiyyətli əxlaqi dəyərlər – yardımlaşma, əltutma kimi həm milli, həm də dini əxlaqi keyfiyyətlərin təbliği dayanır.

Xalqımızın mövsüm və məişət mərasimlərinin əsas mahiyyəti elə xalqımızı məxsus olan köklü əxlaqi dəyərlərin qorunması və gələcəyə ötürülməsidir. Ümumtürk dəyərlərinin daşıyıcı olan bütün mədəni faktorlarımız qədim türk mədəniyyətinin dərinliklərini, o cümlədən mifoloji, fəlsəfi dünyagörüşünə aid olan məqamların təbliği və qorunmasıdır. Odur ki, bu mərasimlərimizin icrası kökü qədimlərdən qaynaqlanan mədəniyyət tariximizə hörmət və ehtiramı da ifadə etmiş olur.

## ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası. I c.: Naxçıvan folkloru, Bakı: Sabah, 1994, 388 s.
2. Azərbaycan folkloru antologiyası. XXIII kitab: Naxçıvan örnəkləri, II c., Bakı: Elm və təhsil, 2012, 332 s.
3. Azərbaycan mifoloji mətnləri / Tərtib edəni Acalov A. Bakı: Elm, 1988, 196 s.
4. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, 424 s.
5. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
6. Kaşğari M. Divanı-lüğət-it-türk. IV c., Bakı: Ozan, 2006, 752 s.
7. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı: Turan, 2002, 680 s.
8. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
9. Şərur folklor örnəkləri. I kitab, Bakı: Elm və təhsil, 2016, 348 s.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ceferli_ayten@mail.ru***

**Aytan Jafarova**

## THE RITE OF KHIDIR NABI: IMPLEMENTATION IN THE ANCIENT MYTHOLOGICAL WORLDVIEW AND IN THE MODERN PERIOD

The ideas of the ancient Turks about seasons and rites are reflected in the cults and rituals that they performed in connection with these. The diversity of nature at each time of the year amazed the ancient man. Various rites and rituals began to develop from this amazement. The change in the

weather and natural phenomena occurring in each season necessitated the adoption of measures by man to tame natural phenomena. Therefore, seasonal changes prompted people to perform interesting rites and rituals. Because many of them were done for a long time, some seasonal customs are still alive today. A rite is a cultural fact that preserves the ancient worldview of a person. Both seasonal and everyday rituals exhibit the characteristics of the spatial and temporal factors that influenced their creation and formation. Thus, it has been established that a public ritual is associated with the locale where it was most frequently and in the most diverse manner. Alternatively, through the ethnographic phenomenon that is most prevalent during the execution of the ritual, one can in some measure ascertain its history, including the period of its inception and evolution. It is necessary to ensure its implementation in order to preserve the facts of the rite and pass them on to the future.

The article examines the mystical origins of the Khidir Nabi ritual, which is still celebrated with great enthusiasm by Azerbaijani Turks, and the current state of its implementation.

**Keywords:** *Khidir Nabi, rite, holiday, Turkic peoples, ritual, green world, space and time.*

**Айтен Джафарова**

## ОБРЯД ХЫДЫР НАБИ: РЕАЛИЗАЦИЯ В ДРЕВНЕМ МИФОЛОГИЧЕСКОМ МИРОВОЗЗРЕНИИ И В СОВРЕМЕННЫЙ ПЕРИОД

Представления древних тюрков о временах года и обрядах отражены в культах и ритуалах, которые они совершали в связи с этим. Разнообразие природы в каждое время года поражало древнего человека. Из этого изумления произошли и стали развиваться различные обряды и ритуалы. Изменения погоды и природные явления, происходящие в каждом сезоне, обусловили необходимость принятия человеком мер по укрощению природных явлений. Поэтому сезонные изменения побудили людей совершать интересные обряды и ритуалы. То, что многие из них совершались в течение длительного времени, привело к сохранению некоторых сезонных обрядов и до наших дней. Обряд – это культурные факты, сохраняющие древнее мировоззрение человека. Как сезонные, так и повседневные ритуалы несут в себе характеристики пространственных и временных факторов, при которых они были созданы и сформированы. Другими словами, подтверждено, что публичный ритуал связан с местом, где он проводился чаще и разнообразнее всего. Или по этнографическому факту, который наиболее активен во время совершения обряда, можно в какой-то степени определить его историю – время его создания и становления. Вот почему очень важно обеспечить его реализацию, чтобы сохранить факты обряда и передать их в будущее.

В статье рассмотрена мифологическая суть обряда Хыдыр Наби, который и сегодня с большим энтузиазмом проводится азербайджанскими тюрками, и современный статус его реализации.

**Ключевые слова:** *Хыдыр Наби, обряд, праздник, тюркские народы, ритуал, зеленый мир, пространство и время.*

*(Professor Füzuli Bayat tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 30.01.2025**
**Son variant 13.03.2025**